

AMALİYA PƏNAHOVA,
Azərbaycan Respublikası
Milli Məclisinin deputatı

# HEYDƏR ƏLİYEVİN MƏDƏNİYYƏTİMİZƏ VƏ MƏDƏNİYYƏT XADİMLƏRİNƏ QAYĞISI

Azərbaycan mədəniyyətinin tarixi çox qədimdir. Zaman-zaman bu mədəniyyətə xidmət edən insanlar öz bənzərsiz istedadları hesabına onu zənginləşdirib inkişaf etdirməyə çalışmışlar. Tam qətiyyətlə demək olar ki, 20-ci əsrin ikinci yarısından bu günədək mədəniyyətimiz özünün yüksək inkişaf mərhələsini yaşamaqdadır. Bu inkişafın da bir sıra ciddi səbəbləri vardır. Onlardan ən önəmlisi Azərbaycan mədəniyyətinə Dövlət qayğısı sayılmalıdır. Yola saldığımız əsrin son 30 ili bu mənada xüsusi qeyd edilməlidir. Bu dövr ərzində mədəniyyətimizdə, mədəni həyatımızda müstəsna yeniliklər baş vermişdir. Ədəbiyyat, teatr, kino, musiqi, rəssamlıq və mədəniyyətin bir çox başqa sahələrindəki inkişafı və tərəqqisi ilk əvvəl Azərbaycan Dövlətinin, onun rəhbəri, Möhtərəm Heydər Əlirza oğlu Əliyevin diqqət və qayğısının nəticəsində mümkün olmuşdur. Hələ ötən əsrin 70-80-ci illərində, yəni Sovetlər Birliyi vaxtında mədəniyyət aləmindəki canlanma, incəsənət xadimlərinə göstərilən diqqət, bütövlükdə başqa xalqlar sırasında zəngin Azərbaycan mədəniyyətinin çox sürətlə inkişaf etməsinə ciddi təkan olmuşdur. Burada, əlbəttə, Heydər Əliyev şəxsiyyətinin incəsənətə bütövlükdə, mədəniyyətə bağlılığı, xüsusi yer tutub. Hələ gənc yaşlarından mədəniyyətə meyyli olan cənab Heydər Əliyevin bu sahəyə böyük əhəmiyyət verməsi, mədəniyyət xadimlərinə bu qədər diqqət və qayğı göstərməsi, onun özünün yaradıcı təbiətindən irəli gəlir. Sonralar yüksək dövlət vəzifəsində olarkən, mədəniyyətin Dövlət strukturunda nə kimi əhəmiyyət kəsb etdiyini o, dərindən duymuş və bu sahəyə çox böyük əhəmiyyət vermişdir. Elə bu səbəbdəndir ki, cənab Heydər Əliyev ötən illər ərzində sənətkarlara qayğı göstərməklə, istedadları tapıb üzə çıxarır, onlara dəstək verir, yeni yaradıcılıq uğurları əldə edilməsi üçün geniş meydan yaradılmasına şərait yaradırdı. Bu isə bütövlükdə mədəniyyətin inkişafına təkan verir, yeni-yeni yaradıcı insanların meydana gəlməsinə səbəb olurdu. Bu gün Azərbaycan mübaliğəsiz Dünya xalqları, xüsusi ilə Türkdilli xalqlar içərisində öz parlaq, yüksək və zəngin mədəniyyəti ilə seçilməkdədir. Dünyanın bütün qitələrində Azərbaycan mədəniyyətinə böyük diqqət və sonsuz marağın kökü, şübhəsiz ki, bu səbəbdəndir. Hələ 70-ci illərdə Akademik Dram Teatrında çalışdığım zaman cənab Heydər Əliyev bu teatrın bütün

tamaşalarına gəlib baxardı. Hər tamaşadan sonra aktyorlarla görüşər, onlara məsləhətlər verər, problemləri və qayğıları ilə maraqlanardı. Çox tez bir zaman kəsiyində aktyorların, teatr işçilərinin xahişlərinə əməl edilərdi. Bu ənənə 60-cı illərin sonundan bu günədək davam edir. Cənab Heydər Əlirza oğlu indi də öz ənənəsinə sadiqdir. Bu gün mədəniyyət sahəsində çalışan hər kəs bilir ki, Prezident Heydər Əliyev mədəniyyəti sevir, mədəniyyət adamlarına diqqət və qayğısını əsirgəmir. Çıxışlarının birində cənab Heydər Əliyev belə demişdir: «Xalqımızın incəsənət, mədəniyyət sahəsindəki nailiyyətləri Vətənini, millətini sevən hər bir azərbaycanlı üçün iftixar mənbəyidir. Mən bununla daim fəxr edirəm». Mədəniyyət sahəsində çalışan hər kəs bilir ki, cənab Heydər Əliyev mədəniyyət xadimlərinin yubileylərində böyük həvəslə iştirak edir, dünyasını dəyişmiş, millət və xalq qarşısında müstəsna xidmətləri olan sənətçilərimizin xatirə gecələrinin və yubiley təntənələrinin keçirilməsinin bilavasitə təşəbbüskarıdır. Belə xatirə gecələrinin keçirilməsi Prezident Heydər Əliyevin bu tədbirlərdə iştirakı və gözəl, məzmunlu çıxışı bir ənənə halına düşüb. Belə xatirə gecələrində əvəzsiz sənətkarlarımız yad etməklə, Möhtərəm Prezidentimiz bu adamların millət və xalq qarşısındakı xidmətlərinə yüksək qiymət verir, onları bir daha yada salır. Heç şübhəsiz ki, bu tədbirlər gənc nəslin tərbiyəsində müsbət rol oynamaqla yanaşı, onların keçmişə hörmət ruhunda köklənməsinə əhəmiyyətli təsir göstərir. Xatırlayıram, «Cənab Heydər Əliyev Akademik Dram Teatrında İ. Əfəndiyevin «Xurşudbanu Natəvan» tamaşasının premyerasından sonra səhnə arxasına gəldi. Səhnədə mənim yaratdığım Natəvan obrazının gözəlliyindən, onun təsirindən çox geniş danışdı. Sonra cənab Heydər Əliyev dedi: «...Siz bu obrazı səhnədə belə gözəl ifa etməklə Natəvanı xalqımıza sevdirdiniz... və teatr tariximizdə çox parlaq səhifə açdınız...»

Eyni oxşar, isti sözləri cənab Heydər Əliyev Şuşada Xurşudbanu Natəvanın heykəlinin açılışında mənim ünvanıma söylədi. Əlbəttə, bütövlükdə bu yüksək qiymət məni sevindirməklə yanaşı, yeni-yeni sənət uğurları qazanmağa ruhlandırdı. Mən 80 illərdə Dövlət Filarmoniyasında keçirilən simfonik musiqi gecələrini xatırlayıram. Cənab Heydər Əliyev musiqinin bu janrından kənar adamların da bu tədbirlərdə iştirakını əhəmiyyətli sayırdı. Musiqinin insanın mənəvi zənginliyinin daha da artması üçün nə kimi əhəmiyyət kəsb etdiyini hər kəs bilir. O zaman simfonik musiqi saatlarını dinləməyin bu yönümdə həlli, maestro Niyazinin rəhbərlik etdiyi simfonik orkestri yaşatmaq, populyar etmək, həm də bütün insanlar üçün əhəmiyyətli olan mənəviyyata xidmət idi. Sonralar bu tədbirlərdə iştirak edən bir çoxları bu simfonik konsertləri, orkestrə virtuoz dirijorluq edən maestro Niyazini böyük heyranlıqla xatırlayırdılar və belə gecələrin keçirilməsi üçün cənab Heydər Əliyevə minnətdar olduqlarını söyləyirdilər.

Cənab Heydər Əliyev Azərbaycan mədəniyyəti və incəsənəti ilə həmişə qürurlu olub. Rus yazıçısı A. Safronovun «Gecənin sirri» əsərinin tamaşasında, 1982-ci il oktyabrın 17-də Akademik Dövlət Dram Teatrına gələnlər müəllif Anatoli Safronovu və tamaşanın iştirakçılarını hərarətlə qarşıladılar. Həmin gün böyük müvəffəqiyyətlə keçən tamaşaya o vaxtkı Sov. İKPMK-nin Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KPMK-nın birinci katibi H.Ə. Əliyev, Azərbaycan KPMK-nın Siyasi Bürosunun üzvləri və büro üzvlüyünə namizədlər də baxırdılar. Cənab Heydər Əliyev və Anatoli Safronov arasında isti münasibətlər var idi. Tamaşa qurtardıqdan sonra Azərbaycanın rəhbəri onun iştirakçıları ilə görüşdü. H.Ə. Əliyev yoldaş A.B. Safronovu, teatrın bütün kollektivini mühüm yaradıcılıq müvəffəqiyyətilə, Böyük Vətən müharibəsi illərində sovet xalqının ölməz hünərini, unudulmaz səhifələrini yada salan gözəl, müasir tamaşa yaratmaqları münasibətilə ürəkdən təbrik etdi. Anatoli Safronov tamaşanın quruluşçu rejissoru Əşrəf Quliyevi, əsəri tərcümə edən Mirzə İbrahimovu və baş rolda Zina rolunda çıxış edən məni məxsusi qeyd etdi. Məni məşhur rus aktrisası Yuliya Borisova kimi geniş diapazona malik sənətkar adlandırdı və mənim kimi aktrisa ilə bütün dünya teatrlarında çıxış etməyin mümkünlüyünü söylədi. Mən bu vaxt Heydər Əliyevə diqqət yetirdim, onun necə daxili bir sevinc, qürur hissi keçirdiyinin şahidi oldum... O gün hörmətli Heydər Əliyevin Azərbaycan teatr xadimlərindən necə ürəklə, iftixarla söhbət açıb səhnə ustalarımızdan, onların yüksək sənətkarlığından, eləcə də mənim yaradıcılığımdan danışdıqca, mən həmkarlarımla bərabər fərəh hissləri keçirirdik. Xoşbəxt idik ki, bizim belə gözəl, bilikli, sənətə və sənətkara qiymət verməyi bacaran bir rəhbərimiz var. Çox-çox sonralar xalqımızın başına gələn Xocalı faciəsini ilk dəfə olduğu kimi, Anatoli Safronovun baş redaktoru olduğu «Oqonyok» jurnalı yazmışdı...

Budur rəhbərimizin uzaqgörənliyi. Hələ 80-ci illərin ortalarında Moskvada yüksək dövlət vəzifəsində işləyərkən, böyük bir ölkənin mədəniyyət sahəsində çalışan sənət xadimləri ilə cənab Heydər Əliyevi möhkəm dostluq telləri bağlayırdı. Böyük siyasətçi, uzaqgörən bir şəxsiyyət kimi sonralar Heydər Əliyev bu dostluğu həm də ölkəmizə, Vətənimizə yönəldə bildi. Buna misal olaraq, Safronov, Zıkina, Puqaçova, Rastropoviç, Xazanov, Sinyavskaya, Bella Davidoviç, Kobzon, Vişnevskaya, Plisetskaya və bir çox dünya şöhrətli sənət adamları Azərbaycanı ürəkdən sevdilər.

1974-ci ildə Azərbaycan teatrının 100 illiyi böyük təntənə ilə qeyd olundu. Bu tədbirdə cənab Heydər Əliyev gözəl, son dərəcə məzmunlu bir məruzə ilə çıxış etdi. Biz hamımız böyük heyranlıqla və sonsuz maraqla bu çıxışı dinlədik. Moskvada keçirilən Azərbaycan mədəniyyəti günləri isə əsl bayrama çevrildi. Teatr, kino xadimlərinə, şair və yazıçılara, müğənni və bəstəkarlara, rəssam və heykəltəraşlara Respublika və SSRİ dövlət mükafatları, Sosialist Əməyi Qəhrəmanı, müxtəlif orden və medallar, fəxri adlar verilməsi, mədəniyyət və incəsənət xadimlərini yeni-yeni zirvələr fəth etməyə ruhlandırdı. Bütün bunlar Heydər Əliyevin gördüyü işlərin çox cüzi bir hissəsidir.

1993-cü ildə xalqın təkidi ilə Dünya şöhrətli siyasi xadim cənab Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra, bu ənənə davam etdirilir. Prezident

Heydər Əliyev keçmişdə olduğu kimi, bu gün də mədəniyyətimizi hörmətə qaldırıb yaşadır. Mədəniyyət və incəsənət xadimlərimizi, mədəniyyətə vicdanla xidmət edən adamları diqqət və qayğı ilə əhatə edib, onları şöhrətləndirib, yeni-yeni yaradıcılıq nailiyyətlərinə sövq edib, onların problemlərinin həllində heç nəyi əsirgəmir.

Müstəqillik qazanmış ölkəmizdə mədəniyyət sahəsində çalışanların əmək haqqı dəfələrlə artırılıb. Balet artistlərinə, dövlət simfonik orkestri, dövlət mahnı rəqs ansamblı işçilərinə yüksək məvaciblər təyin olunub, Dövlət və aparıcı teatrların məvacibi 1997-ci ildə 50% artıb. Böyük Məhəmməd Fizulinin 500 illiyinin, Kitabi-Dədə Qorqudun – 1300 illiyinin və bir çox dahi şair və yazıçılarımızın, bəstəkar və müğənnilərimizin yubileylərinin fərmanla keçirilməsi, bayram edilməsi Möhtərəm Prezidentimiz Heydər Əliyevin mədəniyyətə və mədəniyyət xadimlərinə olan diqqət və qayğısından xəbər verir. İndi artıq bizim bir çox tarixi abidələrimiz, dünyanın mədəniyyət abidələri sırasında məhəbbətlə qorunmaqdadır. YUNESKO-nun Azərbaycana belə böyük diqqətlə yanaşması, bizim mədəniyyət abidələrimizə bu qədər vəsait sərf etməsi üçün biz ilk növbədə Heydər Əliyevə minnətdar olmalıyıq. Azərbaycanı Müstəqil Dövlət kimi dünyaya tanıdan Heydər Əliyev mədəniyyət abidələrimizin dünyada müstəqil tanınıb qorunmasında çox böyük uzaqgörənlik nümayiş etdirir. Heydər Əliyevin şəxsi təşəbbüsü və hörməti sayəsində 1994-cü ildən bu yana görkəmli yazıçılara, bəstəkarlara, rəssamlara, heykəltəraşlara, teatr və kino xadimlərinə, müğənnilərə və musiqiçilərə fəxri adlar, ölkəmizin ən ali mükafatı «Şöhrət» və «İstiqlal» ordenləri verilmişdir.

Sənətdə və xalq qarşısında xidməti olan mədəniyyət və incəsənət xadimlərinə ömürlük, yüksək Prezident təqaüdünün verilməsi cənab Heydər Əliyevin diqqət və şəxsi qayğısı sayəsində mümkün olmuşdur. 2002-ci ildə Prezidentin məlum fərmanı ilə teatr sənətinin inkişafına əmək sərf edənlərə birinci, ikinci, üçüncü dərəcəli Prezident mükafatları təsis edilmiş və teatra təmənnasız xidmətdə olanlara verilməkdədir. Gənc nəsil də unudulmur istedadlı uşaqlar Prezidentimizin məxsusi diqqətindədir. 130 yaşlı Dünyavi Peşəkar Azərbaycan teatrının varisi 10 yaşlı Bələdiyyə tetrında çalışan sənətkarlar da bu qayğıdan kənar qalmadı. Rəhbərlik etdiyim Bakı Bələdiyyə Teatrı kollektivinin iyirmi üç əməkdaşına möhtərəm Prezidentimiz fəxri adlar verdi. Uzun illər mədəniyyətdə çalışan bu sənətkarların əməyinə cənab Heydər Əliyev tərəfindən verilən bu yüksək qiymət başqaları kimi, bizi də yeni-yeni yaradıcılıq zirvələrini fəth etməyə ruhlandırmışdır. Budur cənab Heydər Əliyevin sənət adamlarına olan diqqət və qayğısı.

Dünya şöhrətli, görkəmli ictimai-siyasi və Dövlət xadimi Heydər Əlirza oğlu Əliyev Azərbaycanın Prezidenti seçildikdən sonra başqa sahələrdə olduğu kimi, elm, ədəbiyyat, mədəniyyət və incəsənət xadimlərində də sənətin, elmin sabahına ümid yarandı. Prezidentin vaxtaşırı sənət adamları ilə görüşü, onların yubileylərində iştirakı, ayrı-ayrı teatr tamaşalarına gedib, müxtəlif tamaşalara baxdıqdan sonra kollektivlərlə söhbəti, fikir söyləməsi onların mənəvi dayaq nöqtəsini müəyyənləşdirdi və möhkəmləndirdi. Mənim yubileyimdə Möhtərəm Heydər Əliyevin söylədiyi sözləri daim xatırlayıram: «Artistin, səhnə işçisinin sənəti mürəkkəb işdir, istedaddan əlavə çox böyük mənəvi və fiziki gərginlik, fədakarlıq, daha doğrusu, fədailik tələb edir...

...Mədəniyyətimizi heç vaxt unutmamışıq, unutmayacağıq da. Mədəniyyətdə hər kəsin öz yeri var, heç kəs, heç kəsin yerini almır. Mədəniyyətdə, incəsənətdə hər kəs öz əməyinə görə xalqın, ictimaiyyətin qiymətini alır, o cümlədən biz də – Dövlət də bu baxımdan qiymət veririk».

Hörmətli Prezidentimiz Heydər Əliyev mədəniyyət işçilərini birliyə çağırır, onlara xalqı birləşdirmək vəzifəsini, yerinə yetirməyi arzulayıb, deyir: «Bu gün xalqımız daha sıx birləşməlidir; bu işdə mədəniyyət öz işini görməlidir. Çünki insanları yalnız mənəviyyat birləşdirir. Heç bir sahə mədəniyyət qədər xalqı birləşdirə bilməz. İnsanların da mənəviyyatına güclü müsbət təsir göstərən incəsənət olubdur... teatr xadimləri, teatrda işləyən hər bir şəxs fədakarlıq edir. İndi teatrda işləmək asan məsələ deyil. Mən bunu yaxşı bilirəm. Salonda otururuq, üç saata yaxın davam edən tamaşa bizə bir an kimi gəlir. Mən belə təsəvvür edirəm, elə bilirəm ki, başqa tamaşaçılar da bu fikirdədirlər. Ancaq hər bir aktyor hər hansı bir obrazı ifa etmək üçün nə qədər enerji sərf edir. Oxuyan da, çalan da, söz deyən də, rol ifa edən də. Mən yenə deyirəm, teatr xadimləri, incəsənət sahəsində çalışan adamlar ən fədakar insanlardırlar. Hər biriniz xalqımız üçün qiymətli insanlarsınız. Çox böyük iş görürsünüz. Hər birinizi qucaqlayıram, öpürəm, hər birinizə xoşbəxtlik, cansağlığı arzu edirəm. Yeni-yeni yaradıcılıq uğurları arzu eləyirəm və ümidvaram ki, mədəniyyətimizi yüksəklərə qaldıracaqsınız. Siz və sizdən sonra gələnlər mədəniyyətimizi daima irəliyə aparacaqlar». Sənətkarları belə qiymətlindirən və bu fikirləri söyləyən şəxs özü dahidir, böyükdür!

Biz mədəniyyət və incəsənət xadimləri də Möhtərəm Prezidentimiz, unikal şəxsiyyət Heydər Əliyevin bizə verdiyi yüksək qiymətə həmişə layiq olmağa çalışırıq. Biz hamımız mədəniyyətimizin və mədəniyyət xadimlərinin belə bir qayğıkeşi olduğundan hər zaman fəxr duyuruq. İxtiyar sahibi Böyük Yaradan onu başımız üstündə həmişə uca tutmasını arzulayırıq.

Bu gün dövlətimizin müstəqillik tarixini yazan Heydər Əliyev, həmdə Azərbaycan mədəniyyətinin və incəsənətinin şanlı salnaməsini yazmaqdadı. Onun adı xalqımızın tarixinə yazıldığı kimi, mədəniyyətimizin tarixinə də qızıl hərflərlə yazılmışdır.